*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 437-441*

https://doi.org/10.62837/2025.9.437

**BAHAR ƏLİYEVA**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
(İnşaatçılar prospekti 45)
baharaliyeva2017@gmail.com

# CƏLİL MƏMMƏDQULUZADƏNİN UŞAQ HEKAYƏLƏRİNİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ, TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

**Açar sözlər:** ədəbiyyat, hekayə, uşaq tərbiyə, ideya, bədii, yaradıcılıq, klassik, nəsr
**Ключевые слова:** литература, рассказ, ребенок, образование, идея, художественный, творческий, классический, проза
**Keywords:** literature, story, child, education, idea, artistic, creative, classic, prose

Azərbaycan uşaq nəsrinın yaranması, eləcə də C.Məmmədquluzadənin hekayə yaradıcılığına başlaması XIX əsrin son rübünə təsadüf edir. Həmin dövrdə uşaq nəsri ədəbiyyatın ayrıca sahəsi kimi formalaşmış, XX əsrin əvvəllərində inkişaf etməyə başlamışdır. Belə ki, əsrin əvvəlləri bütövlükdə Azərbaycan mədəniyyətində olduğu kimi, uşaq ədəbiyyatı sahəsində də xüsusi dövr kimi qiymətləndirilməlidir. Bu dövrdə ilk uşaq mətbuatı yaranmış, uşaq ədəbiyyatının poeziya, nəsr, dramaturgiya sahələri inkişaf etmişdir.

Azərbaycan ədəbiyyatının, o cümlədən uşaq ədəbiyyatımızın tarixində görkəmli yer tutan C.Məmmədquluzadə (1866-1932) məhz belə bir dövrdə öz çoxşaxəli, çoxcəhətli yaradıcılığı ilə öz xalqının tərəqqisi, inkişaf etmiş millətlər cərgəsində layiqli yer tutması üçün məhsuldar fəaliyyət göstərmişdir. O, hekayələrində xalq ruhunu gözəl bilən, uşaq psixologiyasının dərinliklərinə bələd olan bir yazıçı kimi məşhurlaşdı və Azərbaycan ədəbiyyatında şirin, duzlu, realist hekayələrin bir sıra gözəl nümunələrini yaratdı.

Realist milli uşaq nəsrinin əsasını qoymuş C.Məmmədquluzadənin hekayələri böyüklər üçün yazdığı nəsrin ifadə tərzindən, təhkiyə üsulundan tam azad olmasa da, bu bitkin əsərlərdə yeni gənc nəslin tərbiyə məsələləri özünün geniş əksini tapmışdır. Görkəmli yazıçının nəsr yaradıcılığı isə artıq milli uşaq ədəbiyyatının formalaşmağa doğru tam şəkildə meyletmə dövrünə təsadüf edirdi. Müxtəlif illərdə qələmə aldığı «Pirverdinin xoruzu», «İki alma», «Saqqallı uşaq», «Buz» və digər hekayələrində böyük həqiqətləri əks etdirmişdir. Ədib "İki alma" hekayəsində təsvir etdiyi kiçikyaşlı uşağın təbiətində özünü büruzə verən humanist hissi təqdir edirdi.

Bədii söz ustası kimi C.Məmmədquluzadə özünü ilk dəfə hekayə janrında kəşf etdi. Sənət yanğısının yığcam formalarda təcəssümu elə stimul yaratdı ki, fitri istedadı yazıçıya özünü digər ədəbi növ və janrlarda da sınamaq şansı verdi. Bu sınağın uğurlu alınmasında hekayədə qazanılan təcrübə kara gəldi. Buna görə də

deməк olar ki, C.Məmmədquluzadənin uşaq hekayələrinə gedən sənət yolu "Poçt qutusu"ndan başlayıb.

C.Məmmədquluzadə uşaq psixologiyasına, onun maraq dairəsi və anlaq səviyyəsinə bələd olan incə zövqlü, həssas duyğulu sənətkardır. O, XX əsr uşaq ədəbiyyatımızın yaradılması və inkişaf etdirilməsində ardıcıl və məqsədyönlü şəkildə çalışmış, öz fəaliyyəti ilə bu sahədə bir məktəb yaratmışdır.

Cəlil Məmmədquluzadənin uşaq həyatından hekayələr yazması fəal sənətkar mövqeyindən başqa, onun müəllimilik fəaliyyəti ilə də birbaşa bağlıdır. Ədibin zəngin həyat təcrübəsinə və geniş elmi biliyə malik olması istər pedaqoji fəaliyyətində, istərsə də bədii yaradıcılığında özünü qabarıq şəkildə göstərməkdədir. Onun müəllimliyi ədəbi-bədii yaradıcılığı üçün, xüsusilə Azərbaycan uşaq ədəbiyyatını zənginləşdirən əsərlərin yaranması üçün bir növ yaradıcılıq laboratoriyası rolunu oynamışdır. Müəllimliyi, pedaqoji fəaliyyəti ilə bədii yaradıcılığı vəhdət təşkil etmiş, bu yaradıcılıq sahələrin bir- birini tamamlamışdır.

Əziz Mirəhmədov ədibin əsərlərinin I cildinə (1983) yazdığı "Dahi yazıçınn ədəbi irsi" başlıqlı ön sözdə qeyd edirdi ki, ürəyində vətənə xidmət amalı coşan Məmmədquluzadə Uluxanlı, Baş Noraşen hü bir Nehrəm kənd məktəblərində işlədiyi zaman heç bir çətinliyə baxmadan özünü bütünlüklə xalqa həsr etmişdi. Müəllim dostlarından biri yazır ki, mən hələ " sürgün yeri" hesanb olunan Nehrəmə gəlməzdən əvvəl Mirzə Cəlil haqqında "çoxlu tərifəlayiq sözlər" eşitmişdim. "Nehrəmin tam avamlığı və cəhaləti içərisində həqiqətən bir işıq mənbəyi" olan bu cavan maarifçi qızlar üçün xüsusi bir sinif açmışdı, xəstə uşaqların müalicəsinə yaxından kömək edirdi, savadsız kənd əhli üçün kitab oxuyurdu, kəndə yeni təsərrüfat alətləri gətirilməsi yolunda çalışırdı.[1]

Ədibin nəsrini yüksək qiymətləndirən Mirzə İbrahimov yazırdı: "Azərbaycan nəsrinin tarixində C.Məmmədquluzadənin povest və hekayələri böyük yer tutur. Həyat hadisələrini mənalandırıb süjet qurmaqda, tip yaratmaqda , yığcam və lakonik hekayələr və novellalarda həyatın səciyyəvi səhnələrini əks etməkdə, insan psixolojisini açmaqda o, böyük, ustad yazıçıdır. Hekayələrində də satirik və komik istiqamət əsasdır.

Cəlil Məmmədquluzadənin elə bir əsəri yoxdur ki, onun əsasında ardıcıl, diqqətli, dərin yazıçı müşahidələri,real həyat hadisələri və həyati tiplər durmasın. Buna görə də onları oxuyanda biz hər sözünə, hər hadisəyə o qədər inanırıq ki, elə bilirik bütün bu əhvalatlar gözümüzün qabağında, real həyatda baş verməkdədir. Naturaya əsaslanmaq, naturadan şəkil çəkmək və həyatın fəlsəfəsini, həyatın psixoloji dərinliyini əks etdirmək Cəlil Məmmədquluzadə realizminə xas olan gözəl bir keyfiyyətdir."[2]

---

[1] Məmmədquluzadə C. Əsərləri I cild. Bakı: Azərnəşr, 1983.səh. 6.
[2] Məmmədquluzadə C. Əsərləri 3 cilddə. I cild. Bakı:Azərbaycan Elmlər Akademiyasının nəşriyyatı.1966,s.

Ədibin nəsr yaradıcılığı artıq Azərbaycan uşaq ədəbiyyatının formalaşmağa doğru meyiletmə dövrünə təsadüf edir. Ədib müsəlman dünyasının həqiqətlərini uşaq əsərlərində də verməkdən çəkinmir, cəmiyyətdə mövcud olan nöqsanları bu sahədə tənqid obyektinə çevirməyi bacarırdı. «Pirverdinin xoruzu», «Buz», «İki alma», «Saqqallı uşaq» və digər hekayələrində böyük həqiqətlər qapısı açmağa meyl göstərən yazıçı, ədəbi ənənələri yeni üslubda inkişaf etdirməyə çalışmışdır.

«Saqqallı uşaq» hekayəsinin qəhrəmanı Kəblə Əzim savadsızdır. O, satdığı şeylərin haqq-hesabını yalnız özünün başa düşdüyü işarələrlə divara yazır. Ev sahibi bu hərəkəti uşaqların etdiyini düşünüb əsəbiləşir.

Hekayənin finalında isə məlum olur ki, divarları yazan, alış-veriş haqq-hesabını bu üsulla aparan savadsız Kəblə Əzim imiş. Ev sahibi uşaqları çağırıb divardakı yazıları onlara göstərir və deyir: “Balalarım, bu yazını yazan da sizin kimi uşaq idi; ancaq bircə təfavütünüz oradadır ki, onun saqqalı var, sizin hələ saqqalınız yoxdur.”

«İki alma» hekayəsində ata öz oğlu üçün aldığı iki almadan birini ehtiyac üzündən dilənən uşağa vermək istəməsə də, sonradan tutduğu əməldən peşman olur. Məlum olur ki, ata bu sadə məsələ üzərində düşünüb-daşınana və qəti qərar çıxarana qədər, artıq oğlu almaları öz yaşıdı ilə bölüşmüşdür.

Hekayədə humanizm, xeyirxahlıq probleminə yeni prizmadan yanaşılır. Şəhərə gəzməyə çıxan ata tramvayda ondan pul istəyən dilənçi uşağa yardım əli uzatmağın düzgün olub-olmadığı barədə düşünür. Yanındakı oğlu isə əlindəki almalardan birini öz həmyaşıdı olan dilənçi uşağa verir. Atadan fərqli olaraq oğul daha həssas, mərhəmətlidir. O, yardıma ehtiyacı olan insan görəndə atası kimi müxtəlif düşüncələrə dalmır, konkret addım atır, xeyirxahlıq nümunəsi göstərir.

«Buz» hekayəsində insanın öz hərəkətləri üçün mənəvi məsuliyyət daşıması problemi qoyulub. Əsərin qəhrəmanı uzun illər keçdikdən sonra uşaqlıqda baş vermiş hadisəni xatırlayır, düşünmədən etdiyi hərəkətə – xəstə xalasına buzu çatdıra bilmədiyinə görə vicdan əzabı çəkir. Yazıçı oxucuya belə bir fikir aşılayır ki, yaşından asılı olmayaraq, hər bir insan etdiyi hərəkət üçün məsuliyyət hissi duymalıdır.

C.Məmmədquluzadənin uşaq əsərlərini təhlil etdikcə onun gerçək həyata realist yazıçı təfəkkür ayıqlığı ilə baxdığını, öz dövrünün eyib və nöqsanlarını tənqid etməklə bəşər övladını məstedici yuxudan ayıltmağa çalışdığını, müasir zamanla ayaqlaşmayan köhnəliyə qarşı çıxmağı bacaran cəsarətli sənətkar olduğunu görürük. Realist milli uşaq nəsrinin əsasını qoyan Mirzə Cəlilin hekayələrində uşaqların tərbiyəsi ilə bağlı cəmiyyəti düşündürən bir sıra zəruri məsələlər öz geniş əksini tapmışdır.

C.Məmmədquluzadənin uşaq hekayələri uğurlu bədii axtarışların məhsuludur. Bu axtarışların arxasında canlı insan xarakterləri dayanır. Ən diqqət çəkən cəhət ondan ibarətdir ki, bu, o dövr üçün səciyyəvi olan müasir mövzu dairəsində həll olunur. Məhz müasir mövzulara müraciət etməklə obrazların

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 437-441*

mürəkkəb, bəzən də ziddiyyətli psixologiyasını, əhval-ruhiyyəsini bədii tədqiq və təhlil obyekti kimi götürür.

Dövrün dinamik gerçəkliyi, aktual mənəvi, soial problemləri onun uşaq hekayələrində bütün əlvanlığı ilə əks olunur. Öz yaradıcılıq ənənəsinə sadiq qalan yazıçı hazır sxemlərdən çıxış etmir və uşaq həyatı, tərbiyəsi ilə bağlı problemlərə müraciət edib, milli-mənəvi dəyərlərə möhkəm bağlı olduğunu əyani şəkildə göstərir.

Uşaq xarakterlərinin reallığı və həyatiliyi C.Məmmədquluzadənin hekayələrində ən qiymətli cəhətlərdəndir. Həyatın, insanların xarakterik cizgilərini dəqiqliklə təsviri yazıçının gerçəkliyə həssas müşahidələrinin nəticəsi olaraq meydana gəlmişdir.

## ƏDƏBİYYAT

1. Məmmədquluzadə C. Əsərləri 3 cilddə. I cild. Bakı:Azərbaycan Elmlər Akademiyasının nəşriyyatı.1966.
2. Məmmədquluzadə C. Əsərləri I cild. Bakı: Azərnəşr, 1983.səh. 6.
3. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. Bakı: Elm, 1988.
4. Babayev B. Uşaq ədəbiyyatı nümunələrinin təhlili xüsusiyyətləri. Bakı: Müəllim, 2006.
5. Əhməd V. Azərbaycan uşaq ədəbiyyatı. Bakı:Müəllim, 2006.
6. Xəlil Z., Əsgərli F. Uşaq ədəbiyyatı. Bakı: ADPU-nun nəşriyyatı, 2007.
7. Həsənli B.Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim, 2014.
8. Məmmədquluzadə C. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006.
9. Yusifoğlu R. Uşaq ədəbiyyatı, Bakı: Təhsil, 2002.

**B.Əliyeva**

## CƏLİL MƏMMƏDQULUZADƏNİN UŞAQ HEKAYƏLƏRİNİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ, TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

### *Xülasə*

Cəlil Məmmədquluzadənin bədii yaradıcılığınınd uşaq həyatından yazdığı hekayələr mühüm yer tutur. Bu, onun fəal sənətkar mövqeyindən başqa, müəllimlik fəaliyyəti ilə də birbaşa bağlıdır. Ədibin zəngin həyat təcrübəsi, vətəndaşlıq mövqeyi yüksək sənət nümunəsi olan uşaq hekayələrində özünü parlaq şəkildə biruzə verir. C.Məmmədquluzadə uşaq əsərlərində gənc nəslin təlim-tərbiyəsinə humanist mövqedən yanaşmış, köhnəliyi, nadanlığı, fanatizmi cəsarətlə kəskin tənqid etmiş, həyat hadisələrinin real təsvirinə xüsusi diqqət yetirmişdir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 437-441*

**B.Alieva**

## IDEO-ARTISTIC FEATURES AND EDUCATIONAL SIGNIFICANCE OF CHILDREN'S STORIES BY JALIL MAMEDGULUZADE

***Resume***

The stories written about children's life occupy an important place in the artistic creativity of Jalil Mammadguluzadeh. This is directly related to his active artistic position, as well as his teaching activity. The writer's rich life experience and civic position are clearly manifested in children's stories, which are examples of high art. In his children's works, J. Mammadguluzadeh approached the education of the younger generation from a humanist position, boldly criticized old-fashionedness, ignorance, fanaticism, and paid special attention to the realistic depiction of life events.

**Б.Алиева**

## ИДЕЙНО -ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ И ВОСПИТАТЕЛЬНОЕ ЗНАЧЕНИЕ ДЕТСКИХ РАССКАЗОВ ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ

***Резюме***

В творчестве Джалила Мамедгулузаде важное место занимают написанные им рассказы о своем детстве. Помимо его положения активного художника, это напрямую связано с его педагогической деятельностью. Богатый жизненный опыт и гражданская позиция писателя ярко раскрываются в детских рассказах, являющихся образцами высокого искусства. В своих детских произведениях Дж. Мамедгулузаде подходил к воспитанию подрастающего поколения с гуманистической точки зрения, смело критиковал старость, невежество и фанатизм, уделял особое внимание реалистическому описанию жизненных событий.

**Rəyçi B.Həsənli**
**pedaqoqika üzrə fəlsəfə doktoru, dosent**